Müstəqil ictimai-siyasi, publisistik qəzet № 36 (961) 04 sentyabr 2019-cu il Qiymıəti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

# MEHRİBAN ƏLİYEVA - 55

# SƏN VƏTƏNİN DAYAĞI, İNSANLIĞIN ADISAN, İSTİQLAL PƏRİSİSƏN, İLHAMIN QANADISAN

*İnsanın yaşadığı ömründə onu şərəfləndirən, qazandığı uğurlarının timsalında könlünü sevinclərə qərq edən məxsusi günləri olur. Zənnimcə, bunlardan ən ümdəsi və doğalı onun doğum günüdür. Həmin gün hər bir insan duyğusallıqla yaşadığı ömrə nostalji hisslərin xatirəsi işığında keçib gəldiyi yollara boylanır. Yaşadığı həyatı kinolenti kimi gözlərinin önündən keçirir. Bu, həm də insanın özünə, yaşadığı cəmiyyətə verdiyi hesabat günü kimi də anlaşılır. Ötüb-keçən illər əsl vətəndaş ömrü kimi yaşanıbsa, belə bir möhtəşəmlik onun fəaliyyətinə verilən əla qiymət kimi dəyərləndirilir. İki qoşa əlanın - 55-in fonunda ömür xeyirxahlıq, insansevərlik, rəşadət, xalq sevgisi ilə süslənibsə, bunun adı bəxtiyarlıqdı, böyük bəxtiyarlıq. Bu, xalqın sevimlisi, füsünkar Ledisi, mənəvi anası Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bəxtiyarlığıdır.*

*Doğum gününüz mübarək olsun, əziz və sevimli Mehriban xanım...*

**Şəfəq NASİR**

Kredo.S.1.